# Ədəbiyyat dərslərində icmal mövzuların interaktiv metodlarla tədrisi

**Yədulla Beydulla oğlu Dadaşlı**
*ADPU-nun Cəlilabad filialının dosenti,*
*filologiya üzrə fəlsəfə doktoru*
**E-mail:** elvin.dadasli@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. B.A. Həsənli,
p.ü.f.d. X.A. Talıbova

**Açar sözlər:** monoqrafik oçerklər, icmal mövzular, ədəbi-tarixi faktlar, interaktiv metodlar
**Ключевые слова:** монографические очерки, обзорные темы, литературно-исторические факты, интерактивное обучение
**Key words:** monographic essays, review, historical facts, interactive education

Ümumtəhsil məktəblərinin X-XI siniflərində ədəbiyyat fənni sistemli şəkildə, xronoloji ardıcıllıqla, ədəbi-tarixi aspektdə öyrənilir. Azərbaycan ədəbiyyatşünaslığının inkişaf mərhələləri, Azərbaycan ədəbiyyatı klassiklərinin həyat və yaradıcılığı iki üsulla: monoqrafik oçerklər və icmallar biçimində şagirdlərə çatdırılır. Monoqrafik oçerkdə sənətkarın həyat və yaradıcılığı işıqlandırılır, bir və ya bir neçə əsərinin mətni üzərində iş aparılır. Görkəmli rus pedaqoqu, professor Z.Y. Rez yazıçının bioqrafiyası və yaradıcılığının monoqrafik tədrisinə xüsusi önəm verərək yazır: "Yuxarı siniflərdə proqramda xronoloji ardıcıllıqla yerləşdirilmiş yazıçıların yaradıcılığının monoqrafik öyrədilməsinə xüsusi diqqət yetirilir" (7, s. 227). X-XI siniflərdə ədəbiyyatın tədrisi prosesində monoqrafik oçerklər və icmal mövzular bir-birini tamamlamaqla Azərbaycan ədəbiyyatı tarixinin inkişaf yolunu işıqlandırır, milli ədəbiyyatımızın irəliləyişinin, çeşidli mərhələlərinin mənzərəsini yaradır.

Məktəblilərdə zəngin və çoxəsrlik Azərbaycan ədəbiyyatının inkişaf xüsusiyyətləri haqqında dolğun təsəvvürlər yaradır. Məlumdur ki, XII əsr Nizami Gəncəvi, XIV əsr İmadəddin Nəsimi, XVI əsr Məhəmməd Füzuli və Şah İsmayıl Xətayi, XVIII əsr Molla Pənah Vaqif və Molla Vəli Vidadi, XIX əsr Mirzə Fətəli Axundzadə və Seyid Əzim Şirvani, XX əsr Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Cəfər Cabbarlı, Səməd Vurğun kimi dahi söz sənətkarlarını yetirmiş, bu sənətkarların çoxu hətta ədəbi məktəb yaratmışlar. Adları çəkilən korifey söz sərraflarını bir-birindən 100-200 illik bir zaman məsafəsi ayırır. Ədəbiyyat tariximizin öyrənilməsi onu da təsdiqləyir ki, XI-XX yüz illərdə bizim yüzlərlə şair və yazıçılarımız yaşayıb-yaratmış, zəngin bədii irsi, qiymətli sənət əsərlərini gələcək nəsillərə yadigar qoyub əbədiyyətə qovuşmuşlar.

Unutmayaq ki, Qətran Təbrizi (1012-1088), Məhsəti Gəncəvi (XII əsr), Əfzələddin Xaqani (1126-1199), Marağalı Əhvədi (1274-1338), Xurşid Banu Natəvan (1832-1897), Əbdürrəhim bəy Haqverdiyev (1870-1933), Məmməd Araz (1933-2004) və adını çəkmək imkanımız olmadığı yüzlərlə şairimiz dahi klassiklər səviyyəsinə yüksələ bilməsələr də, dəyərli sənət incilərinin yazarı kimi tanınmış, yüksək milli-bəşəri ideyalar yayınlamış, vətənə, xalqa ləyaqətlə xidmət etmişlər. Adları çəkilən sənətkarların həyat və yaradıcılığının monoqrafik şəkildə öyrədilməsi vaxt baxımından imkan xaricində olduğundan icmal mövzuların tədrisi zamanı onlar haqqında məlumatın verilməsi böyük təlim mahiyyəti daşıyır. Ədəbiyyatın tədrisində icmal mövzuların əhəmiyyəti böyükdür.

Öncə icmal mövzular müəyyən bir tarixi dövrün ədəbi-ictimai cəhətlərini səciyyələndirir,

ədəbiyyatın inkişaf mərhələlərini, ədəbi mühiti, ədəbiyyatşünaslıq məsələlərini, ədəbi cərəyanları, milli mətbuatı, yaradıcılıq metodlarını aydınlaşdırır. Müxtəlif şairlərin yaradıcılıq ideyalarını əlaqələndirir, klassiklərin (məsələn, Nizami və Nəsiminin, Ş.İ. Xətayi və M.P. Vaqifin və ədəbi fəaliyyəti arasında mənəvi körpü yaradır. Ədəbi məktəb yaradan Nizami, Fizuli, M.P. Vaqif şimalı dünya şöhrətli sənətkarların yaradıcılıq ənənələrini davam etdirən şairlərin həyatı və əsərləri haqqında şagirdlərin biliklər qazanmasına imkan yaradır.

İcmal mövzuların öyrənilməsi bir sıra çətinliklərlə də bağlıdır. Belə ki, icmal mövzuların tədrisinə proqramda çox az vaxt (2-3 saat) ayrılır, dərsliklərdə ümumiləşdirmənin zəifliyi müşahidə olunur, informasiyanın, ədəbi-tarixi faktların zənginliyi mühazirəçi müəllimi bəzi çətinliklərlə qarşılaşdırır. Şagirdlərin şairlərin dərslikdə adı çəkilən əsərlərini oxumaması onların həmin əsərləri qavramasına imkan vermir. Şagirdlər icmal mövzular haqqında məlumatı müəllimdən və dərslikdən alır. Odur ki, ədəbiyyat müəllimi icmal mövzuların öyrənilməsindəki çətinlikləri nəzərə alaraq, özü bu mövzuların tədrisinə ciddi hazırlaşmalı, az vaxt içərisində hansı ədəbi-tarixi faktları, hansı yazıçıların əsərlərini şagirdlərin diqqətinə çatdırmağı müəyyənləşdirməlidir.

Ədəbiyyat müəllimi  icmal mövzuları müəyyən bitkin hissələrə ayırmalı, hər hissəsinin mətni üzərində iş aparmalı, icmal mövzuların aşağıdakı variantlar üzrə öyrənilməsinə nail olmalıdır: 1. Giriş icmallar; 2. Ədəbiyyatın inkişaf mərhələlərini işıqlandıran icmallar; 3 Konkret yazıçının yaradıcılığını əks etdirən icmallar.

Bununla yanaşı, deyək ki, müəllim "XIX əsr Azərbaycan ədəbiyyatı" icmal mövzusunu öyrədərkən şagirdlərin qabaqcadan A. Bakıxanovun (1794-1847) lirik şeirlərini, "Mişkatül-əvnar", "Miratül-Cəmal" məsnəvilərini, "Nəsihətlər"ini, İ. Qutqaşınlının (1809-1861) "Rəşid bəy və Səadət xanım" hekayəsini, X. Natəvanın (1832 -1897) bəzi qəzəllərini sinifdənxaric oxu vasitəsilə mütaliə etmələrinə çalışmalıdır. İcmal mövzuların tədrisi prosesində dövrün əsas tarixi və ictimai-siyasi hadisələrinin səciyyələndirilməsi, bu hadisələrin ədəbiyyatda inikasının aydınlaşdırılması, dövrün ədəbi həyatının xülasəsi, görkəmli şair və yazıçıların yaradıcılığının öyrədilməsi məsələləri diqqət mərkəzində saxlanılmalıdır.

Müəllim interaktiv mühazirəsinin səmərəliliyini artırmaq məqsədilə qabaqcadan öyrəniləcək icmal mövzunun planını hazırlamalı, mühazirəni plandakı ardıcıllıqla oxumalıdır. Müəllim az vaxt ərzində müxtəlif məlumatları şagirdlərə  çatdırmağı bacarmalı, metodik üsul və vasitələrdən məqsədyönlü faydalanmalıdır. Məsələn, "Orta dövr Azərbaycan ədəbiyyatı" icmal mövzusunu öyrədən müəllim "Ədəbiyyat" dərsliyindəki materiallar əsasında aşağıdakı plana uyğun məlumatları şagirdlərə çatdıra bilər: Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin yaranması, xalq yaradıcılığının güclənməsi, XIII əsrdən etibarən anadilli poeziyanın inkişafı, poeziyada dünyəvi məhəbbətin və real gözəlliyin tərənnümü, anadilli epik şeir nümunələrində: "Dastani-Əhməd Hərami", Qul Əlinin "Qisseyi-Yusif", Yusif Məddahın "Vərqa və Gülşa", Əssar Təbrizinin " Mehr və Müştəri" poemalarında əxlaqi, humanist və fəlsəfi fikirlər, Nizami ədəbi məktəbinin davamçılarının yaradıcılığı, İ. Həsənoğlu, Z. Şirvani, Q. Bürhanəddin, Kişvəri və Həbibinin poeziyası və s. Göründüyü kimi, icmal mövzularda öz əksini tapan məlumatlar monoqrafik oçerklərdən zənginliyi, genişliyi, əhatəliliyi və rəngarəngliyi ilə fərqlənir.

X-XI siniflərdə ədəbiyyat kursunun "Giriş"lə başlaması ədəbiyyatşünaslığın öyrədilməsinin bünövrəsini qoymaq, ədəbi mövzuların öyrənilməsi üçün zəmin yaratmaq, məktəblilərə ədəbiyyat fənninin məqsəd və vəzifələri  haqqında ilkin biliklər vermək məqsədi daşıyır. X sinfin "Ədəbiyyat"  dərsliyində "Giriş" mövzusu aşağıdakı məlumatları əks etdirir.

- Bədii ədəbiyyatın məqsəd və vəzifələri.

- Şifahi və yazılı ədəbiyyatın fərqli cəhətləri.
- Ədəbiyyatın lirik, epik və dramatik növlərə bölünməsi, hər növün əsas özəllikləri.
- Ədəbiyyatın milliliyi və beynəlmiləlliyi.
- Azərbaycan ədəbiyyatının ümumtürk ədəbiyyatının tərkib hissəsi olması.
- Ədəbiyyatşünaslığın sahələri: ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi, ədəbi tənqid.

XI sinfin "Ədəbiyyat" dərsliyindəki "Giriş" mövzusunda isə Azərbaycan ədəbiyyatının tarixən formalaşmış ideya-bədii inkişaf istiqamətlərindən, Azərbaycan ədəbiyyatı tarixinin orta, yeni və ən yeni dövrlərinin səciyyəvi xüsusiyyətlərindən, azərbaycançılıq məfkurəsinin formalaşmasından danışılır. "Giriş" mövzusunun öyrənilməsi nəzəri, ədəbi və tarixi faktları sistemləşdirib əlaqəli şəkildə anlatmağı tələb edir. X sinfin "Ədəbiyyat" dərsliyində Azərbaycan ədəbiyyatı tarixinin inkişaf mərhələləri aşağıdakı dövrlərə bölünür.

Qədim dövr (ən qədim zamanlardan XIII əsrə qədər).

— Orta dövr (XIII əsrdən XVII əsrə qədər)

— Yeni dövr (XVII əsrdən XX əsrin əvvəllərinə qədər)

— Ən yeni dövr (XX əsrin əvvəllərindən bu günə qədər)

"Yeni dövr Azərbaycan ədəbiyyatı" icmal mövzusu üç mərhələdə öyrədilir. Birinci mərhələ XVII-XVIII əsrlər, ikinci mərhələ XIX əsr Azərbaycan ədəbiyyatını əhatə edir və X sinifdə öyrənilir. Yeni dövrün "XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı" adlanan üçüncü mərhələsi isə XI sinifdə öyrənilir. Yuxarı siniflərdə ədəbiyyatın tədrisi zamanı hər bir dövrü səciyyələndirən, ədəbi-tarixi hadisələri işıqlandıran faktlar bir-birilə əlaqələndirilməli, şagirdlərin diqqətinə çatdırılmalıdır. Metodik ədəbiyyatda göstərilir ki, icmal mövzularla bağlı mühazirə oxuyan müəllim izahlı-reproduktiv və interaktiv metodlardan, əyani vasitələrdən istifadə etməlidir. ADPU-nun dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Bilal Həsənli icmal mövzuların səmərəli öyrədilməsi ilə bağlı yazır: "Tarixi, mədəni, ədəbi, bioqrafik faktlar geniş yer tutduğu üçün ədəbiyyat tədrisində çətin mövzulardan sayılan icmal mövzuların səmərəli öyrənilməsi baxımından dərsdə interaktiv mühazirə, dialoq, ifadəli oxu, şagirdlərin müstəqil çıxışları daha məqsədəuyğundur" (5, s. 265). Bununla bərabər, ədəbiyyat müəllimi öyrəniləcək icmal mövzunun xarakterindən asılı olaraq, interaktiv təlimin hansı metodunun (metodlarının) faydalı olacağını qabaqcadan müəyyənləşdirməli, mövzunu buna uyğun öyrətməyi bacarmalıdır. Müəllim unutmamalıdır ki, icmal mövzuların səmərəli öyrədilməsi təlim metodunun (metodlarının) düzgün seçilməsindən asılıdır. İcmal mözvular öyrədilərkən müəllim interaktiv təlimin fasilələrlə oxu, müzakirə, əqli hücum, diskussiya, debat, Venn diaqramı, müqayisə cədvəli, BİBÖ və başqa metodlarından məqsədyönlü istifadə edə bilər. İcmal mövzunun mətni hissələrə bölünür. Fasilələrlə oxu metodunun tələbinə görə, müəllim bir hissənin məzmununu danışdıqdan sonra fasilə yaranır, müəllim sual-cavab apardıqdan sonra növbəti hissələr üzərində iş başlanır.

Müzakirə metodu problemin həlli yolunu tapmaq, düzgün qərar çıxarmaq məqsədi daşıyır. Əqli hücum metodu vasitəsilə şagirdlərin yeni mövzu haqqında bilikləri üzrə çıxarılır, onlarda müzakirə olunacaq mövzuya maraq gücləndirilir. İcmal mövzuda qaldırılan problemlə bağlı diskussiya aparılır. Problem qruplarda və ya bütün şagirdlərlə müzakirə oluna bilər.

BİBÖ metodu şagirdlərin öyrənilən icmal mövzu ilə bağlı nələri bildiklərini, nələri öyrənmək istədiklərini və öyrəndiklərini aşkara çıxarır. İcmal mövzuların keyfiyyətli öyrədilməsi üçün başqa interaktiv metodlardan istifadə etmək metodik baxımdan faydalıdır.

Məktəb təcrübəsi göstərir ki, ədəbiyyat müəllimləri icmal mövzuların interaktiv metodlarla öyrədilməsi sahəsində kifayət qədər təcrübə toplamamışlar. Bunu nəzərə alaraq, XI sinifdə tədris olunan "Yeni dövr Azərbaycan ədəbiyyatı" icmal mövzusunun fəal təlim texnolo-

giyaları ilə öyrədilməsinə aid dərs nümunəsi verməyi qərarlaşdırdıq. Proqramda tədrisinə üç saat vaxt ayrılmış bu mövzunu aşağıdakı şəkildə planlaşdırmağı məqsədəuyğun hesab edirik:

Birinci saat: Yeni dövr Azərbaycan ədəbiyyatı (dövrün sosial-siyasi vəziyyəti, "Molla Nəsrəddin" jurnalı, əhatə etdiyi problemlər, daimi müəllifləri).

İkinci saat: Yeni dövr Azərbaycan ədəbiyyatı ("Füyuzat" jurnalı, daimi müəllifləri. M. Hadi və Ə. Hüseynzadənin fəaliyyəti).

Üçüncü saat: Yeni dövr Azərbaycan ədəbiyyatı (ədəbiyyatşünaslığın inkişafı, A. Sur, S. Hüseyn və F. Köçərlinin fəaliyyəti)

Birinci dərs

Mövzu: Yeni dövr Azərbaycan ədəbiyyatı (dövrün sosial-siyasi vəziyyəti. "Molla Nəsrəddin" jurnalı, əhatə etdiyi problemlər, daimi müəllifləri)

Məqsəd: Dövrün sosial-siyasi vəziyyəti və ədəbiyyatın inkişafı haqqında təsəvvürün yaradılması

— "Molla Nəsrəddin" jurnalının nəşri tarixi, tematikası, əsas müəllifləri, ideya istiqaməti ilə əlaqədar təsəvvürün formalaşdırılması;

— Məntiqi və yaradıcı təfəkkürün inkişaf etdirilməsi;

— Müstəqil və birgə işləmək bacarığının formalaşdırılması.

İş forması: Fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş.

Metod, priyom və iş növləri: Müəllimin izahı, müsahibə, istiqamətləndirilən mühazirə, problemin həlli.

Təchizat: Ədəbiyyat. XI sinif üçün dərslik (müəlliflər: N. Cəfərov, İ. Həbibbəyli, N. Əliyeva, A. Bakıxanova. Bakı: Çaşıoğlu, 2006, s. 7-13)

Problemli vəziyyətin yaradılması və problemin qoyuluşu

XX əsrin əvvəllərində Azərbaycan tarixində baş verən ən mühüm hadisələr və bu hadisələrin ədəbiyyata təsiri barədə şagirdlərin aşağı siniflərdə qazandıqları məlumatlar təkrarlandıqdan sonra şagirdlərin fəal iştirakı ilə aşağıdakı tədqiqat sualı müəyyənləşdirilir.

"Molla Nəsrəddin" jurnalı Azərbaycan ədəbiyyatının inkişafına necə təsir göstərmişdir?

Dərsdə "istiqamətləndirilən mühazirə" metodundan istifadə daha faydalıdır. Bu metodun tələbinə əsasən, dərslikdəki material iki və ya üç hissəyə bölünür, hər hissə müəllim tərəfindən təxminən beş dəqiqə ərzində izah olunur. Müəllim giriş, əsas hissə və nəticədən ibarət olan mühazirənin planı ilə şagirdləri tanış edir. Girişdə planın bu məzmunda hazırlanmasının səbəbi, dərsdə həyata keçiriləcək işlərin ardıcıllığı, tədqiqat sualı ilə bağlı məsələlər əhatə olunur. Planın əsas hissəsi aşağıda göstərilən məzmunda ola bilər:

Azərbaycan müəllimlərinin birinci (1906) və ikinci (1907) qurultayları barədə məlumat.

- Ədəbi və siyasi istiqamətləri təmsil edən mətbuat orqanlarının yaranması.
- "Molla Nəsrəddin" jurnalının nəşri tarixi, ideya-məzmun istiqamətləri, əsas tənqid hədəfləri
- "Molla Nəsrəddin" ədəbi məktəbinin yaranması, jurnalda C. Məmmədquluzadə, M.Ə. Sabir, Ö.F. Nemanzadə, Ə. Nəzmi, Ə. Qəmküsar, M. Möcüz və Ə. Haqverdiyevin fəaliyyəti.
- Maarifçi-realist ədəbiyyatın inkişafı və əsas nümayəndələrinin (N. Nərimanov, S. Qənizadə, R. Əfəndiyev, S.S.Axundov) maarifçilik fəaliyyəti.

Planın əsas müddəaları müəllim tərəfindən izah olunduqdan sonra həmin müddəalar şagirdlər tərəfindən yazılır, 4-5 dəqiqə ərzində müzakirə olunur. İkinci-üçüncü dərs saatlarında da icmal mövzunun o biri hissələrinin ("Füyuzat" jurnalı, ədəbiyyatşünaslığın inkişafı) yuxarıda göstərilən ardıcıllıqla öyrədilməsi məqsədəuyğundur.

Mühazirə planının nəticə hissəsində öyrədilən mövzu ilə bağlı yığcam nəticələr çıxarılır,

ümumiləşdirmələr aparılır, problem xarakterli suallar aydınlaşdırılır. Yeni dərsin şagirdlər tərəfindən necə mənimsənilməsinin testlərlə, frontal müsahibə ilə, şagirdlərin yazdıqları mətnlə dərslikdəki mətnin müqayisəsi ilə yoxlanılması elmi-metodik baxımdan səmərəlidir. Qiymətləndirmə vərəqlərində göstərilən normalar üzrə qiymətləndirmə aparılır. Qiymətləndirmə normalarında mövzunun mənimsənilmə səviyyəsi, şagirdlərin dərsdə fəal olması, digərlərini dinləməsi, dərsin maraqlı keçməsi də nəzərə alınır. Ev tapşırığı olaraq öyrədilən icmal mövzu üzrə essenin yazılması, mühazirədə yazılmış mətnlə dərslikdəki mətnin müqayisəsi və başqa mövzular üzərində şagirdlər işlədilə bilər. Müasir məktəbdə icmal mövzuların müəllimin interaktiv mühazirəsi əsasında tədrisi daha səmərəlidir. Görkəmli metodist alim B. Həsənlinin düzgün müşahidə etdiyi kimi: "Mühazirə zamanı söhbət elementlərinə yer verilməsi, şagirdlərə problemli suallarla müraciət edilməsi, onların tədqiqata, axtarışa cəlb olunması, əvvəlcədən hazırladıqları məlumatla, təqdimatla çıxış etmələri müsbət nəticə verir" (5, s. 269).

**Məqalənin aktuallığı.** Ədəbiyyatın tədrisində icmal mövzuların əhəmiyyəti böyükdür. Öncə icmal mövzular müəyyən bir tarixi dövrün ədəbi-ictimai cəhətlərini səciyyələndirir, ədəbiyyatın inkişaf mərhələlərini, ədəbi mühiti, ədəbiyyatşünaslıq məsələlərini, ədəbi cərəyanları, milli mətbuatı, yaradıcılıq metodlarını aydınlaşdırır.

**Məqalənin elmi yeniliyi.** Ümumtəhsil məktəblərinin X-XI siniflərində ədəbiyyat fənni sistemli şəkildə, xronoloji ardıcıllıqla, ədəbi-tarixi aspektdə öyrənilir. Azərbaycan ədəbiyyatşünaslığının inkişaf mərhələləri, Azərbaycan ədəbiyyatı klassiklərinin həyat və yaradıcılığı iki üsulla: monoqrafik oçerklər və icmallar biçimində şagirdlərə çatdırılır. Monoqrafik oçerkdə sənətkarın həyat və yaradıcılığı işıqlandırılır, bir və ya bir neçə əsərinin mətni üzərində iş aparılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ümumtəhsil məktəblərində ədəbiyyat fənnini tədris edən müəllim və şagirdlər, həm də geniş oxucu kütləsi istifadə edə bilər.

## Ədəbiyyat

1. Cəfərov N. Kərimli T, Əsgərli Z, Bakıxanova A. Ədəbiyyat: 10-cu sinif üçün dərslik. Bakı: Çaşıoğlu, 2005.
2. Cəfərov N, Hacıbəyli İ, Əliyeva N, Bakıxanova A. Ədəbiyyat: 11-ci sinif üçün dərslik. Bakı: Çaşıoğlu, 2006.
3. Əhmədov C. Ədəbiyyat tədrisi metodikası. Bakı: Bakı universiteti, 1992.
4. Hacıyev A. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı: Təhsil, 2003.
5. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2014.
6. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Bakı, 2009.
7. Методика преподавания литературы. М., Просвещение, 1983.
8. Mikayılov Ş, Bəkirova A. Ümumtəhsil məktəblərinin V-XI siniflərində ədəbiyyatın tədrisi metodikası. Bakı: Naksuana, 2008.

**Я.Б. Дадашлы**

## Преподавание обзорных тем интерактивными методами на уроках литературы

### Резюме

В статье рассказывается об обучении с интерактивными методами обзорных тем в старших классах общеобразовательных школ. Указывается методы интерактивного обучения литературной деятельвности писателей. К преподаванию обзорных тем дается поурочые образцы.

**Y.B. Dadashli**

## Teaching of the round up themes with iteractive methods in literature lessons

### Summary

The article is said teaching of the review themes in interactive education at schools in high classes. Teaching writes activities in active education is shown in the article. At the same time lesson examples about review is shown in the article.

**Redaksiyaya daxil olub:** 13.05.2022